*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 mart 2020-ci il № 18 (2436) Qiymәti 30 qəpik

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınları tariximizin hər bir dövründə cəmiyyətin mənəvi dayağı olmuşlar. Xalqımızın əsrlər boyu təşəkkül tapmış zəngin milli mədəni sərvətlərinin hifz edilməsində və ali bəşəri keyfiyyətlərin nəsildən-nəslə ötürülməsində onların misilsiz xidmətləri vardır.

Yeni cəmiyyət quruculuğu şəraitində ictimai fəallıqlarını gücləndirərək sosial-mədəni həyatda yaxından iştirak etmələri Azərbaycan qadınlarının yüksək intellektual səviyyəsinin aydın təzahürüdür. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra da onlar sosial fəallıqları ilə seçilmiş, təhsil, səhiyyə, elm və mədəniyyət sahələrində çoxsaylı nailiyyətlər qazanmışlar. Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək, nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər.

Respublikamızda təşəbbüskar qadınlarımızın öz yaradıcı potensiallarını gerçəkləşdirmələri üçün əlverişli zəmin mövcuddur. Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətləri ilə onlar yeniləşən ölkəmizin ahəngdar yüksəlişinin təmin edilməsində əhəmiyyətli rol oynayırlar. Qadınlarımızın hazırkı ictimai mövqeyi və işgüzar nüfuzu vahid məfkurə ətrafında birləşmiş cəmiyyətimizin mühüm reallıqlarından biridir.

Əziz qadınlar!

Əminəm ki, siz hər zaman olduğu kimi bundan sonra da övladlarımızın milli mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək və Azərbaycanın inkişaf salnaməsinə parlaq səhifələr yazacaqsınız.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 mart 2020-ci il.

# Ağstafada Müdafiə Nazirliyinin "N" hərbi hissəsi ilə tanışlıq



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 4-də Müdafiə Nazirliyinin Ağstafada yeni inşa olunan "N" hərbi hissəsinin açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Bildirdi ki, bu hərbi hissənin tikintisinə 2017-ci ilin noyabr ayında başlanıb və 2019-cu ilin sentyabrında inşaat işləri başa çatdırılıb. Ümumi sahəsi 10 hektar olan hərbi hissənin ərazisində bütün zəruri sosial infrastruktur yaradılıb. Hərbi hissənin idarə heyəti üçün burada qərargah binası - ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları var.

(Ardı 2-ci səhifədə)

# Prezident İlham Əliyev Gürcüstanın Müdafiə nazirini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvilini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin birgə iştirak etdiyi mühüm enerji layihələrinin əhəmiyyəti vurğulandı, Cənub Qaz Dəhlizinin uğurla reallaşmasının önəmi qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlığın, investisiya qoyuluşunun, əlaqələrimizin inkişafına töhfə verdiyi bildirildi.

# XİN: Bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir

Martın 5-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozub. Düşmən qüvvələrin snayperdən açdığı atəş nəticəsində Qazax rayonu Quşçu Ayrım kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsindəki sərhədçi əsgərimiz Orxan Nazim oğlu Paşazadə qətlə yetirilib. Baş verən bu qanlı insident məqsədyönlü təxribat xarakteri daşıyır və bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Bəyanatda qeyd edilir ki, Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan hərbi qulluqçumuzun qətlə yetirilməsi işğalçı Ermənistanın münaqişənin sülh yolu ilə həlli çağırışlarının yalan və riyakarlıqdan başqa bir şey olmadığını açıq şəkildə nümayiş etdirir. Məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu kimi cinayətkar və dağıdıcı fəaliyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə və beləliklə də, ATƏT-in Minsk Qrupunun həmsədrləri simasında beynəlxalq ictimaiyyətin səylərinə birbaşa maneə törədir.

Allah şəhidimizə rəhmət eləsin.

# Ağstafada Müdafiə Nazirliyinin “N” hərbi hissəsi ilə tanışlıq

**(Əvvəli 1-ci səhifədə)**

Hərbi hissədə Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri, Baş Qərargah rəisi və birlik komandirinin iştirakı ilə operativ müşavirə keçirildi.

Qeyd edək ki, yeni hərbi hissənin ərazisində yataqxana binaları, stomatoloq, fizioterapiya, funksional diaqnostika bölmələrinin olduğu tibb məntəqəsi var. Burada döyüş



hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə daxilində döyüş hazırlığı üçün təlim meydançaları olan qarovul şəhərciyi də inşa edilib. Ərazidə geniş abadlıq və yaşıllıq işləri görülüb.

Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illərdə maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır. Ordumuzun son dövrlərdə qazandığı qələbələr aydın şəkildə göstərir ki, Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Yenilməz və güclü ordumuzda xidmətləri ilə fəxr edən Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Hərbi qulluqçular üçün bu cür müasir şəraitin yaradılması Azərbaycan dövlətinin əsgər və zabitlərə diqqətini aydın şəkildə göstərir. Bu cür hərbi hissələrin yaradılması xidməti yüksək səviyyədə aparmağa və hərbin sirlərinə daha dərindən yiyələnməyə geniş imkanlar açır.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyevə ən müasir yeni hərbi texnikalar təqdim olundu.

Bildirildi ki, tank əleyhinə idarə olunan raket kompleksi "SPİKE-ER" qurğusu döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşdırılan, 400 metrdən 8000 metrə qədər gündüz, gecə və məhdud görmə şəraitində düşmən tanklarını, piyadaların döyüş maşınlarını və zirehli texnikalarını məhv etmək üçün təyin olunmuş raketburaxıcı sistemdir. 122 millimetrlik "HAUBİTSA 2A18 D-30", 122 millimetrlik "ÖAQ 2S1" və 122 millimetrlik "YARS BM-21 V" qurğuları düşmənin açıq və qapalı yerlərdə yerləşən canlı qüvvəsini, atəş vasitələrini, uzunmüddətli örtülü açıq tipli müdafiə qurğularını məhv etmək, minalanmış sahələrdən keçid açmaq, düşmənin artilleriyasını və tank bölmələrini atəşə tutmaq üçün təyin olunub. "RM-70 döyüş maşını m-21OF" qəlpələnən-fuqas mərmisi ilə atış aparарkən toplanma rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq tapşırıqlarını yerinə yetirir. Özüyeriyən top, haubitsa qurğusu 152 millimetrlik "DANA M1M" avtomatik doldurmaya malik olan yeni artilleriya qurğusu olub, düşmənin artilleriya qurğularını, atəş vasitələrini, komanda və idarəetmə məntəqələrini, istehkam qurğularını, tank və zirehli texnikalarını məhv etmək üçün təyin olunub. 306 millimetrlik "Ekstra" taktiki raket sistemidir. İqlim şəraitindən asılı olmayaraq, 30-150 kilometr məsafəyə raket buraxmaqla cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə raket bölmələrini, ordu komanda məntəqələrini, mövqelərdə hava raket hücumundan müdafiə bölmələrini məhv etmək üçün təyin olunub. Əməliyyat-taktiki raket kompleksləri "POLONEZ" və "LORA" düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunlarının əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurmaq, dənizsahili istiqamətlərdə isə bundan əlavə, düşmən donanmasının yerləşmə məntəqələrini dağıtmaq və onun döyüş gəmilərini məhv etmək üçün təyin olunub. "MKAP-19" səhra komanda və idarəetmə məntəqələrinin daxilində və bir-biriləri arasında, həmçinin stasionar idarəetmə məntəqələri ilə İP texnologiyaları əsasında səs, data və video məlumat mübadiləsini təmin edən kompleksdir.

Dövlətimizin başçısına hərəkətli mobil kommunikasiya avadanlıqları barədə də məlumat verildi.

Azərbaycan Ordusunun ən müasir silah, döyüş texnikası və avadanlıqlarla təchizatı və təminatı davam edir.

Ali Baş Komandan qoşunların strateji və əməliyyat idarəetmə orqanlarının istifadəsinə yeni verilmiş informasiya və kommunikasiya texnologiyaları ilə tanış olaraq operativ, gizli və yüksək səviyyəli qorunan idarəetmə sistemli videobağlantıda iştirak edib.

Ali Baş Komandan mərkəzi, ehtiyat, səhra şəraitində



yaradılmış Ön, Hərbi Hava, Hərbi Dəniz və Xüsusi Təyinatlı Qüvvələrin, eləcə də digər qoşun növlərinin idarəetmə məntəqələri ilə birbaşa əlaqə saxlayaraq məruzələri qəbul edib və irimiqyaslı komanda-qərargah təlimlərində iştirak edən qoşunlara müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin edilməsi ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

# Bakıda Azərbaycan və Gürcüstan Müdafiə nazirlərinin görüşü keçirilib

*Martın 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*






Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdən əvvəl Gürcüstan nümayəndə heyəti Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklil və gül dəstələri qoyub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Gürcüstanın Müdafiə naziri fəxri qarovulun önündən keçdikdən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq İ.Qaribaşvili "Şərəf kitabı"nı imzalayıb.

Geniş tərkibdə keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik Zakir Həsənov strateji tərəfdaşlığımızın yüksək səviyyədə olduğunu və bunun təkcə ölkələrimizin inkişafında deyil, həm də bütün regionda təhlükəsizliyin təmin edilməsində mühüm rol oynadığını vurğulayıb.

Hərbi əməkdaşlığın regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ikitərəfli və NATO-nun keçirdiyi proqramlar çərçivəsində, eləcə də Azərbaycan-Türkiyə-Gürcüstan hərbi qurumları formatında aparıldığını qeyd edən general-polkovnik Zakir Həsənov, bu əməkdaşlığın fəaliyyət sahələrinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycanın Müdafiə naziri Ermənistanın regional sabitliyə ciddi təhdid təşkil etdiyini, işğalçı ölkənin dövlət səviyyəsində daim separatizmi dəstəklədiyini diqqətə çatdırıb. Nazir beynəlxalq təşkilatlarda Azərbaycanı dəstəklədiyinə və ərazi bütövlüyünü tanıdığına görə gürcü xalqına bir daha minnətdarlığını bildirərək vurğulayıb ki, Azərbaycan da Gürcüstanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

Azərbaycana səfər etməsindən məmnunluğunu bildirən İ.Qaribaşvili bunun ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu bir daha vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən Gürcüstanın Müdafiə naziri bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Görüşdə tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın inkişaf perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi, işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparıblar.

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Azərbaycan qadını tarix boyu şərəfli və müqəddəs ana adını uca tutmaqla müdrikliyi, işgüzarlığı, saflığı və mübarizliyi ilə parlaq səhifələr yazmışdır. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qadınlar da fəal iştirak edib, qəhrəmanlıq nümunələri göstəriblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərimizə xidmət edən və ənənələrimizi qoruyub yaşadan çoxlu sayda layihələrin uğurla icra olunmasında, eləcə də ölkəmizin müdafiə qüdrətinin artırılmasında Azərbaycan qadını da bu gün yaxından iştirak edir.

Torpaqlarımızın müdafiəsi zamanı şəhid olan qadınlarımızın əziz xatirəsini ehtiramla yad edir, şəhid və əsgər analarına, döyüşlərdə şəhid olan, sağlamlığını itirən silahdaşlarımızın ömür-gün yoldaşlarına təbriklərimi çatdırır, yüksək hörmət və ehtiramımı bildirirəm.

İnanıram ki, bütün qadınlar kimi ordu sıralarında xidmət edən və mülki işlərdə çalışan qadınlar bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklər.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Genişmiqyaslı komanda-qərargah təlimləri

*Ordu quruculuğu prosesi döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi deməkdir. Azərbaycan Ordusunun döyüş qabiliyyəti, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik ruhu yüksək səviyyədədir.*



Xəbər verildiyi kimi, qoşunların 2020-ci tədris ilinin hazırlıq planına uyğun olaraq, Müdafiə nazirinin rəhbərliyi ilə genişmiqyaslı komanda-qərargah təlimlərinə başlanılıb. Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərin növbəti mərhələsində səhra şəraitində yaradılan ön idarəetmə məntəqəsində olub. Burada videokonfrans vasitəsilə Müdafiə nazirinə təlimin hazırkı vəziyyətilə bağlı məruzələr edilib. Sonda Müdafiə naziri əsas və ehtiyat idarəetmə məntəqələrində yaradılmış qrupların fəaliyyətini izləyib.

Genişmiqyaslı komanda-qərargah təlimləri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yaradılmasının ildönümü qeyd edilən cəbhəboyu zonada yerləşən hərbi hissələrdən birinin ön xətt bölmələrində olublar.

Bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayan Müdafiə naziri Ermənistan silahlı qüvvələrinin mövqelərini müşahidə edib və müvafiq tapşırıqlar verib.

Sonda ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib və onlarla çay süfrəsi arxasında söhbət aparılıb.

Təlimlərin planına uyğun olaraq, ərazinin kəşfi mərhələsindən sonra təlim iştirakçıları qoşunların qarşılıqlı fəaliyyətinin təşkilini maket üzərində həyata keçiriblər. Müşavirədə qoşunların döyüş hazırlığı təcrübəsi nəzərə alınmaqla, təlimlərin mərhələlər və vaxt üzrə epizodları ərazinin maketi üzərində işlənilib.

Genişmiqyaslı komanda-qərargah təlimlərində qəbul edilən qərara əsasən, qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunub. Gün ərzində genişmiqyaslı komanda-qərargah təlimləri çərçivəsində idarəetmə məntəqələrinin fəaliyyəti davam edib. Təlimin əməliyyat şəraitinə dair məruzələr dinlənilib, vəziyyətlə bağlı təhlillər aparılıb.

**"Azərbaycan Ordusu"**

# Bayramınız mübarək, əziz qadınlarımız!

*Demokratik, tolerant dövlətlərdə insan hüquqları qanunla ciddi şəkildə mühafizə olunur. Belə cəmiyyətlərdə dövlət qadın hüquqlarını da ciddi nəzarətdə saxlayır. Azərbaycan belə dövlətlərdəndir. Hələ 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin ilk sənədlərindən biri qadınlara seçki hüququnun verilməsi oldu. Bu sənəd qadınların cəmiyyətdə rolunun tənzimlənməsi istiqamətində ilk hüquqi dövlət sənədi idi. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra qadınların təxəyyülü, qabiliyyəti, idrakı, istedadı,... cəmiyyətə inteqrasiyası təmin edildi. Ulu öndər Heydər Əliyevin "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, həyat ola bilməz", - fikirləri dövlətin daxili siyasətində əhəmiyyətli dərəcədə nəzərə alındı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti də uğurla davam etdirir. Bütün dövlət strukturlarında təmsil olunan qadınlar Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində fəal iştirak edirlər.*

*8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində Azərbaycan Ordusunda xidmət edən və işləyən qadınların bir neçəsinin dediyi fikirləri təqdim edirik.*



**Mayor Şahnaz Teymurova:**

- Qoynunda dünyaya göz açdığım Laçında 8 il yaşadım. Erməni işğalçıları doğma ocaqlarımızı zəbt edəndə ikinci sinifdə oxuyurdum. Yaşım az olsa da o, ağrılı-acılı günlər yaddaşımda əbədi iz salıb. Elə o vaxtlardan qəlbimdə erməni qəsbkarlarına qarşı nifrət hissi məni hərbçi olmağa həvəsləndirdi. Bu maraq mənə ordunu sevdirdi, ömrümü hərbi həyata bağladı.

Orta təhsilimi bitirən ili - 2001-ci ildə sənədlərimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdim. Sınaqlardan uğurla keçib istəyimə çatdım. Təhsil illərində hərbi biliklərə yiyələndim. Təhsilimi başa vurub, leytenant rütbəsi aldığım günü heç vaxt unutmayacağam.

Bir müddət Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, sonra "N" hərbi hissəsində xidmət etdim. 2016-cı ildən xidmətimi Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərzaq xidmətinin rəisi vəzifəsində davam etdirirəm.

Hərbçi qadınları görəndə həmişə: "Aslanın erkəyi, dişisi olmaz" atalar sözü yadıma düşür. Tarix boyu düşmən hücumu olanda qadınlar da kişilərlə bərabər silaha sarılaraq döyüşə yollanıblar. Kişilərlə çiyin-çiyinə vuruşublar, igidlik, qəhrəmanlıq göstəriblər. Tomrisin, Həcərin, Nigarın və Qarabağ müharibəsində iştirak edən hərbçi qadınların cəsarəti bizim üçün örnəkdir. Qəhrəmanlıq ənənələri bu gün də davam edir, sabah da davam edəcək.

Mən bütün qadın hərbi qulluqçularımızı 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, onlara xidmətlərində uğurlar arzulayıram.

**Tibb xidməti mayoru Elmira Nohova:**

- Hərbi qulluqçulara tibbi xidmət göstərmək qürurvericidir. Uzun illərdir bu sahədə çalışıram. Hərbi formanı görəndə ürəyim dağa dönür. Bu sahəyə olan maraq oğlum Raufa da keçib - uşaqlığından evdə hərbi forma görüb, ürəyində bu peşəyə məhəbbət yaranıb. Rauf indi kapitandır, "N" hərbi hissəsində xidmət edir. Nəyə görə övladımdan çox danışdım? Çünki bizə müraciət edən hərbi qulluqçuları öz oğlum bilirəm.

Poliklinikamızda hərbi qulluqçulara tibbi xidmət göstərmək üçün hərtərəfli şərait yaradılıb.

Poliklinikanın rəisi tibb xidməti polkovnik-leytenantı Mehriban Quliyeva bütün işləri diqqət mərkəzində saxlayır. İşlərin daha rəvan, rahat keçməsi üçün məsləhət və tövsiyələrini bizdən əsirgəmir. Hərbi qulluqçularımız bütün müayinələrdən keçirilir, analizlər qəbul olunur. Dispanser müayinəsinin keçirilməsinə böyük məsuliyyətlə yanaşırıq. Çünki hərbçi üçün sağlamlıq vacib şərtdir. Axı onlar gərgin keçən təlimlərdə, məşğələlərdə iştirak edir, yurdumuzu erməni işğalçılarından qoruyurlar. Vətən



qoruyucularının sağlamlığının keşiyində dayanmaq şərəfli vəzifədir.

Bu gün cəmiyyətimizdə qadınların nüfuzunun artması bizi çox sevindirir. Həm dövlət, həm də ictimai işlərdə qadınlara üstünlük verilir.

Mən xidmət yoldaşım olan bütün qadınları, ümumən ordumuzda xidmət edən bütün qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirəm.

**Gizir Ülkər Nəzərova:**

- Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xidmət etmək mənim üçün çox qürurludur. Çünki burada gələcək ordumuzun zabitləri təhsil alır. Mənim üçün çox xoşdur ki, onların sənədlərinin hazırlanmasında iştirak edirəm. Deməli, mən



də ordumuzun qurulması üçün az da olsa nə isə bir iş görürəm. Nümunəvi xidmətimə görə dəfələrlə komandanlıq tərəfindən fəxri fərmanlarla, tərifnamələrlə mükafatlandırılmışam. Əlbəttə ki, bütün bunlar məni sevindirir. Mənim üçün ən böyük sevinc ordumuzun gündən-günə güclənməsidir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsini bitirmişəm. Ölkəmizin coğrafiyasını bilirəm. Doğma Qarabağımızın erməni işğalçılarının tapdağında qalmasından çox üzülürəm. Əminəm ki, gündən-günə güclənən ordumuz torpaqlarımızı işğaldan azad edəcək.

Bayram münasibətilə qadınlarımızı təbrik edir, onlara xidmətlərində, şəxsi həyatlarında uğurlar arzulayıram.

**Abiyat Ağadadaşova** (Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri):

- Ulu öndər Heydər Əliyev deyirdi: "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şanşöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir". Cəmiyyətimiz Ulu Öndərin bu kəlamını sədaqətlə yaşatmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dahi rəhbərin siyasi kursunu



bu istiqamətdə də uğurla davam etdirir, qadınların təfəkkürünün, intellektinin, istedadının cəmiyyətə bütünlüklə inteqrasiyasına gözəl şərait yaradıb. İndi qadınlar ictimai həyatın bütün sahələrində dövlətə, dövlətçiliyə sədaqətlə çalışırlar.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi bütün qadın işçilərinin hüquqlarının müdafiəsində dönməzdir. Onların hər birinin problemlərinin həllində yaxından iştirak edir. Qürurla bildirirəm ki, təşkilatımızın qadın üzvlərinin fəaliyyəti işlədikləri idarənin rəhbərliyi tərəfindən yüksək dəyərləndirilir. Biz də Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi olaraq daim onların mükafatlandırılmasını təmin edirik. Bir sözlə, biz azərbaycançılıq ideologiyasını fəaliyyətimizin başlıca ideoloji amili bilirik.

Azərbaycan Ordusunda xidmət edən, işləyən bütün qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, onlara cansağlığı, uğurlar arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Tamara Muradova:**

- Ön xətt hərbi hissələrindən birində rabitəçi vəzifəsində xidmət edirəm. Çalışdığım sahədə dəqiqliyi və etibarlılığı mən də başlıca meyar bilirəm. Bu sahənin sirlərini də, əsl hərbçi kimi davranmağı da komandirlərimdən öyrənirəm. Xidməti vəzifələrimi bacarıqla yerinə yetirməklə yanaşı, öz davranışımla Azərbaycan qadınının adını hər zaman uca tuturam. Biz qadınlar bütün sahələrdə kişilərlə çiyin-çiyinə dövlətçiliyimizə xidmət edirik.



Cəmiyyətdə böyük nüfuza, mövqeyə malik olan qadınlar dövlətin hərtərəfli inkişafı və tərəqqisi prosesinə öz layiqli töhfələrini verirlər. Respublikamızda olan demokratik mühit ölkə qadınlarının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bütün həmkarlarımı təbrik edirəm.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cəmilə Şəfiyeva:**

- 2015-ci ildən C.Naxçıvanski adına Hərbi Liseydə xidmət edirəm. Liseyimiz yenidən əsaslı təmir olunub. Ordumuzun gələcək zabitlərinin burada təhsil almaları üçün hərtərəfli şərait yaradılıb. Hərbi liseyin rəhbərliyi, zabitlər, müəllimlər bu şəraitdən lazımınca istifadə edirlər. Hər kəs üzərinə düşən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə çalışır. Kursantların bilik səviyyəsinin yoxlanılması üçün bölməmizdə müxtəlif testlər hazırlanır.

Hər şey elmdən, bilikdən başlayır. İstər zabit, istərsə də



adi vətəndaş öz sahəsini mükəmməl bilərsə, işində həmişə uğur qazanar, cəmiyyətdə nüfuzu artar. Mütəxəssislərimiz bunları nəzərə alırlar ki, kursantların biliklərini tam əhatə etsinlər.

Cəmiyyətimizdə qadınların rolunun artdığını gördükcə sevinirəm. Bizim Hərbi liseydə də hərbçi qadınlar xidmət edirlər. Onlar üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetirirlər. Qarabağ müharibəsində qadınlarımız da Vətənin müdafiəsində dayanmışdılar. Biz hərbçi qadınlar onların döyüş yollarını davam etdiririk. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bütün ana və bacılarımızı təbrik edirəm.

**Zümrüd Səmədova** (Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri):

- Qadın anadır. Onun analıq missiyası ən böyük və eyni zamanda, ən müqəddəs bir missiyadır. Ana övladının əsl vətəndaş kimi formalaşmasında böyük rol oynayır.

Torpaqlarımızda müharibə gedir. İşimlə əlaqədar şəhid anaları və ailələri ilə tez-tez ünsiyyətdə oluram. Görürəm ki, şəhid anaları acılar çəksələr də, yenə qürurludurlar, dözümlüdürlər, əyilməz və məğrurdurlar.

Milli-mənəvi dəyərlərimizin formalaşmasında və inkişafında qadınların da rolu böyükdür. Bu fikir ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qadının ailədə, eləcə də cəmiyyətdə rolu haqqında söylədiyi fikirlərində bir daha öz təsdiqini tapır:

(Ardı 5-ci səhifədə)

# Bayramınız mübarək, əziz qadınlarımız!



(Əvvəli 4-cü səhifədə)

"Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq, analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm". Bu yanaşma xalqımızın milli-mənəvi dəyərlər sistemində, ailədə və cəmiyyətdə qadının rolunun nə qədər önəmli olduğunu diqqətimizə çatdırır. Bu gün Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Ordumuzda xidmət edən qadınları, şəhid analarını, bacılarını 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, onlara cansağlığı, ailə səadəti, işlərində uğurlar arzulayıram.

**Humay Hacıyeva:**

- Biz aşpazlar əsgərlərə dadlı xörəklər bişirməklə vətəndaşlıq borcumuzu yerinə yetiririk. Əsgərlərimizin dadlı, keyfiyyətli qidalanmaları üçün əlimizdən gələni əsirgəmirik. Onların sağlamlığının qorunmasında keyfiyyətli və vitaminlərlə zəngin təamlarla qidalanması əsas amillərdən biridir. Əsgərlərimizin fiziki cəhətdən sağlam və gümrah olması ordumuzun döyüş qabiliyyətinin artması deməkdir. Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olması bizi də qürurlandırır. Belə bir orduda işləmək



hər birimizə könül xoşluğu verir. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə üzərimizə düşən vəzifəni layiqincə yerinə yetiririk. Mənim də oğlum hərbi qulluqçudur. Bir hərbçi anası kimi inanıram ki, övladlarımız Ali Baş Komandanın döyüş əmriylə döyüşəcək, torpaqlarımızı işğaldan azad edəcəklər. Bütün anaları, məmləkətimizin bütün qadınlarını 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirəm.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sona Həmzəyeva:**

- Sevinirəm ki, müasir cəmiyyətimizin əksər sahələrində olduğu kimi, ordu quruculuğunda da qadınlarımızın sayı artır. Qadınlar hərb sənətinin məsuliyyətini dərindən dərk edirlər. Komandirlərimizin tapşırıqlarının öhdəsindən operativ gəlmək üçün öz üzərimizdə daim çalışırıq. Xidmətdə olduğum müddətdə xeyli yaddaqalan hadisələr yaşamışam. Keçən il Hərb Oyunlarında (Army Games) iştirakım hafizəmə həkk olunan ən yaddaqalan hadisələrdən biri oldu. Belə ki, Rusiyanın Alabino şəhərində təşkil olunan "Səhra mətbəxi" müsabiqəsində iştirak etdim. Bu yarışlar mənim və komanda yoldaşlarımın təcrübə qazanmasında da mühüm rol oynadı. İştirak etdiyim yarışlarda və müsabiqələrdə birinci olmağa çalışıram. Ölkə daxilində təşkil olunan yarışlarda hər birimiz birincilik üçün mübarizə aparsaq da, mübarizəmiz dostluq və yoldaşlıq şəraitində keçir. Bir neçə dəfə "Ən yaxşı aşpaz" adı uğrunda keçirilən yarışlarda iştirak etmişəm, yüksək nailiyyətlər qazanmışam. Ordu sıralarında xidmət edən qadın hərbi qulluqçu adını daşımaqla qürur duyuram.



Ölkəmizin daxilində və hüdudlarından kənarda yaşayan Azərbaycan qadınlarını 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

**Zəminə Xınalı:**

- Müxtəlif müəssisələrdə işləmişəm. Sonra hərbi xidmətə başlamışam. Uzun müddət Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xidmət etmişəm. Tərxis olunduqdan sonra da hərbi sahədən uzaq düşməmişəm, hazırda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində kitabxana müdiri vəzifəsində çalışıram. Vətənpərvərlik tərbiyəsinin sistemli şəkildə aparılmasında bədii ədəbiyyatın da böyük əhəmiyyəti vardır. Biz fəaliyyətimizi məhz bu amillə qurmuşuq. Mənim hər iki oğlum hərbi qulluqçudur, atalarının yolunu davam etdirir. Bir ana kimi bundan böyük qürur duyuram. Neçə-neçə əsərin müəllifiyəm, ancaq ən dəyərli əsərim Vətənə xidmət edən oğullarımın vətənpərvərliyidir. Vətənpərvərlik tərbiyəsi sayəsində xidmətlərimə görə 2015-ci ildə "Əməkdar mədəniyyət işçisi" adına layiq görülmüşəm.



Dövlətimizin qadınlara, bu sıradan hərbçi qadınlara böyük diqqət və qayğısına görə ölkə başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Mən həm ana, həm də hərbi xidmət keçmiş vətəndaş olaraq bütün qadınlarımızı 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, hər birinə cansağlığı, ailə səadəti arzulayıram...

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şahnaz Cəfərova:**

- Mən də orta məktəbdə oxuyanda müəyyən xəyallarla yaşayırdım. Oxuduğum bədii əsərlərin, gördüklərimin, eşitdiklərimin təsiriylə ixtisas seçimimi də müəyyənləşdirmişdim: müəllim olmaq. Bu peşəni qəlbən sevirdim.

Orta məktəbi bitirdim. Qəbul imtahanlarında kifayət qədər bal toplaya bilmədim. Müəllimlik peşəsi xəyalım olaraq könlümdə qaldı.

İllər keçdi. Azərbaycan Ordusunun qüdrəti haqqında eşitdiklərim mənim könlümdə gərəkli bir arzuya tərpəniş verdi. Mən də hərbçi olmağı qərara aldım. Oxuduqlarım mənim xəyal dünyamı daha da nurlandırmışdı. Bu nurun işığında ömrümün sabahlarını hərbi mundirdə görürdüm. Qərarımı ailəm də dəstəklədi. Atamın bir kəlməsini heç zaman unutmayacam: Sən hərbçi olmaqla, Vətəni necə sevdiyini təsdiqləyirsən, qızım. Sənin bu sevgin müqəddəs sevgidi.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuyam. 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbələrin də, 2018-ci ildə Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradların da qürurunu hərbçi kimi yaşayanlardan biri də mən olmuşam. İnanıram ki, Ali Baş Komandanın döyüş əmriylə qazanılacaq qələbənin sevincini yaxın vaxtlarda qürurla yaşayacağıq...

Mən bütün qadın hərbi qulluqçuları, Azərbaycan Ordusunda işləyən mülki qadın əməkdaşları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirəm. İnanıram ki, onlar Azərbaycan əsgərinin qüdrəti ilə qalib Azərbaycan Ordusunun hərbi qulluqçusu, mülki işçisi kimi qədərsiz qələbə sevinci yaşayacaqlar.

**Zenfira İsmayılova:**

- 1998-ci ilin fevralından Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kitabxana müdiri işləyirəm. Kursantlara, ordumuzun gələcək zabitlərinə xidmət göstəririk. Çalışırıq ki, kursantlarımız savadlı, bilikli olsunlar. Komandanlıq onların



kitabxanadan istifadə etmələri üçün hərtərəfli şərait yaradıb. Kursantlarımız bədii əsərlərə də böyük maraq göstərirlər. Kitabxanamız zəngin olduğundan onlar burada istədikləri ədəbiyyatı alıb oxuyurlar. Mütəmadi olaraq kitabxanada qiraət yarışmaları keçirilir. Bu, kursantların böyük marağına səbəb olur. Təkcə kursantlar deyil, Hərbi liseyin zabitləri, müəllimləri, mütaliəyə böyük maraq göstərən işçiləri də kitabxanamıza gəlirlər. Kollektivimiz oxuculara xidmət göstərmək üçün üzərinə düşən tapşırıqları peşəkarcasına yerinə yetirir.

İllərdən bəri məni Hərbi liseyə bağlayan ordumuza olan sevgi və məhəbbətdir. Silahlı Qüvvələrimiz gücləndikcə bu sevgi daha da artır. Bu sevgi, bu istək məndən övladıma da keçib. Böyük oğlum İlham İsmayılov bu məktəbdə təhsil alıb. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Hazırda "N" hərbi hissəsində xidmətini davam etdirir. Kursantlara doğma övladım kimi baxıram. Çünki onlar ordumuzun, Silahlı Qüvvələrimizin sabahıdır. İnanıram ki, ordumuzun sabahı daha işıqlı və nurlu olacaq.

Hərbi liseyin işçisi kimi, zabit anası kimi bütün hərbçi qadınları, ümumən bütün azərbaycanlı qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, hər birinə cansağlığı arzulayıram.



**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şəhla Babayeva:**

- Gənclərimizin Vətənə, torpağa bağlılığı, müstəqil Azərbaycan Respublikasına, azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunmasında analarımızın xidmətləri böyükdür. Qadınlar dərin zəkası və tükənməz daxili potensialı ilə xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər, cəmiyyətin bütün sahələrində kişilərlə çiyin-çiyinə çalışırlar. Ordumuzda da qadınların xüsusi yeri vardır. Hər biri çalışdığı sahə üzrə ixtisaslaşıb, tutduğu vəzifənin öhdəsindən layiqincə gəlir. Xidmət etdiyim hərbi hissədə əksər ixtisaslarda qadın hərbi qulluqçular xidmət edirlər.

Bu bayram ilk olaraq analarımızın bayramıdır. Analarımıza demək istəyirəm ki, hamı varlığı üçün sizə borcludur. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə anaları, bu sıradan qadın hərbi qulluqçuları təbrik edirəm.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rəna Abbasova:**

- Mən də torpaqlarımızın işğaldan azad edilməsində az da olsa iştirak etmək niyyətiylə hərbçi olmaq istədim. Hərbçi olaraq Vətənə xidmət etməkdən qürur duyuram. Azərbaycan Ordusunun hərbi qulluqçusu adını daşımağın məsuliyyətini dərk edirəm.



Vəzifəmə uyğun olaraq tapşırıqları operativ, cəld və dəqiq yerinə yetirirəm. Dövlətimiz qadınlara yüksək diqqət və qayğı göstərir. Uzun müddətdir ki, idmanın karate növü ilə məşğul oluram. Müxtəlif birinciliklərdə iştirak etmişəm, medal və diplomlarla təltif olunmuşam. Xidmətim müddətində fərqləndiyimə görə komandanlıq tərəfindən fəxri fərman və diplomlara layiq görülmüşəm. Azərbaycanımızın bütün qadınlarını bayram münasibətilə təbrik edir, hər birinə cansağlığı arzulayıram.

**"Azərbaycan Ordusu"**

*Ordu quruculuğu*

# “Vətənə xidmət edirik”

*Ordu quruculuğu dövlət üçün prioritetdir. Buna görə də bu istiqamətdə həyata keçirilən tədbirlər şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksəldilməsini təmin edir. İstər gənc əsgərlərin Hərbi andiçmə mərasimləri, istər "Açıq qapı" günləri, istərsə də genişmiqyaslı təlimlər ordu-ictimaiyyət münasibətlərini daha da möhkəmləndirir.*



Ordu miqyasında keçirilən müxtəlif təyinatlı təlimlər şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsində müstəsna rol oynayır. Belə təlimlər həm də döyüş əzmini, qələbə ruhunu dönməzləşdirir. Hərbi qulluqçular - zabitlər də, gizirlər də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları da, əsgərlər də Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa, torpaqlarımızı işğaldan azad etməyə hazırdırlar və ordumuz Böyük Qələbəni qazanmağa qadirdir.

Genişmiqyaslı komanda-qərargah təlimin gedişində Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyə təqdim edib. Bu, mənəvi-psixoloji hazırlıq baxımından dəyərləndirilməlidir.

Təltif edilənlərdən biri də gizir Vüqar Məcidovdur.

- Mən hərbi xidmətə Qax rayonundan çağırılmışam. Orta məktəbdə oxuyanda digər həmyaşıdlarım kimi, mən də ordu sıralarında xidmətin nə dərəcədə qürurlu olduğunu bilirdim. Hərbi and içəndə bu qüruru daha duyğusallıqla yaşadım.

Hərbi xidmətimi başa vurduqdan sonra da orduda qalıb xidmət etmək qərarına gəldim və bu gün də Vətənimə şərəflə xidmət edirəm.

2014-cü ildə Müdafiə naziri general-polkovnik Zakir Həsənov xidmətdə fərqlənən hərbi qulluqçu kimi məni də təltif etmişdi. Bu, mənim Mütəltifimdir. Çox qürurlanıram. Bu qürur məsuliyyətin artırılması deməkdir. Mən bundan sonra da Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edəcəyəm. Müdafiə nazirinin hədiyyəsi təkcə məni deyil, mənim xidmət yoldaşlarımın da sevincinə səbəb oldu. Əsgər dostluğu belə təltiflərin sevincini hamılıqla yaşatmağa qadirdir. Biz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan tamamilə azad etməyə hazırıq. Ən böyük təltifimiz Böyük Qələbənin sevincini yaşamaq olacaq, - gizir Vüqar Məcidov bildirdi.

Əsgər Murad Əliyev də təltif olunanlar sırasındadır. Onun dediklərindən:

- Hərbi xidmətə Saatlı rayonundan çağırılmışam. Aprel döyüşlərində orta məktəbdə oxuyurdum. Döyüşlər haqqında televiziyadan eşidirdik. Sonra qəzetlərdən oxuduq. Sinif yoldaşlarımla söhbət zamanı niyə 5-6 yaş böyük olmadığımıza çox təəssüflənirdik. İndi hərbi xidmətdəyəm. Əsgərəm. Xidmətimin ilk vaxtlarında müəyyən çətinliklərim olub. Ancaq zabitlərimizin, təcrübəli əsgər yoldaşlarımın köməyi, tövsiyələri ilə bu çətinlikləri aradan qaldırmağı bacarmışam.

Mən əsgər olaraq çox qürurluyam. Müdafiə naziri general-polkovnik Zakir Həsənov nümunəvi xidmət edən bir əsgər kimi məni də təltif etdi. Bu təltifə görə Müdafiə nazirinə, hərbi hissəmizin komandanlığına, hərbi biliklərə yiyələnməyimdə zəhməti olan zabitlərimizə və əsgər yoldaşlarıma təşəkkür edirəm.

Hər birimiz Ali Baş Komandanın döyüş əmrinə hazırıq. Əminik ki, qüdrətli ordumuz tezliklə torpaqlarımızı işğaldan azad edəcək.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 4-də Füzuli rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin rəhbərliyi Od çərşənbəsini şəxsi heyətlə birlikdə qeyd edib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, nazirliyin rəhbər heyəti Od çərşənbəsi və hərbi hissənin yaranmasının 28-ci ildönümü münasibətilə keçirilən tədbirdə iştirak edib.*

Xalqımızın milli-mənəvi dəyərlərini və qədim ənənələrini özündə əks etdirən Novruz bayramı ərəfəsində şəxsi heyətlə görüşən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev bayram şənliyində iştirak edərək Müdafiə nazirinin təbrikini şəxsi heyətə çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edən general-mayor Hikmət Həsənov, Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və digərləri hərbi hissənin keçdiyi döyüş yolundan, digər sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də ölkəmizdə uğurla həyata keçirilən islahatlardan danışıblar. Mərasim iştirakçıları keçirilən genişmiqyaslı komanda-qərargah təlimlərinin də hərbi qulluqçuların peşəkarlığının və hərbi hissələrin döyüş qabiliyyətinin yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini xüsusi qeyd ediblər.

Dövlətimizin diqqət və qayğısı sayəsində şəxsi heyətin döyüş hazırlığının, sosial-məişət şəraitinin, mənəvi-psixoloji vəziyyətinin, döyüş ruhunun yüksək olduğunu vurğulayan hərbi qulluqçular torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olduqlarını bildiriblər.



Bayram tədbirində xidmətdə fərqlənən hərbi qulluqçular fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilib. Tədbir bayram tonqalı ətrafında davam etdirilib.

# Naxçıvan Qarnizonu Qoşunlarında toplantı keçirilib



*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə təlim toplantısı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, zabitlərin nəzəri biliklərinin və bölmələri idarəetmə vərdişlərinin yüksəldilməsi, əməliyyat və qərargah hazırlığı üzrə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən toplantıda gecə şəraitində sürücülük və atəş tapşırıqları yerinə yetirilib.

Müxtəlif qurumların nümayəndələrinin də iştirak etdiyi nəzəri dərslərdə hüquq hazırlığından "Bölmələrdə cinayət hadisələrinin baş vermədən qarşısının alınması", mənəvi-psixoloji hazırlıqdan "Milli-mənəvi və dini dəyərlərin yad təsirlərdən qorunması", informasiya təhlükəsizliyindən "Qoşunlarda kütləvi informasiya vasitələrinin nümayəndələri ilə qarşılıqlı əlaqə və çəkilişlərin təşkili", eləcə də digər mövzularda mühazirələr oxunub.

Toplantının planına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Simulyasiya Mərkəzində ikitərəfli kompüter dəstəkli tabor taktiki təlimi keçirilib. Təlimdə müdafiə və hücum əməliyyatları qərargahlar tərəfindən planlaşdırılıb və qəbul edilmiş qərarlar kompüterlər üzərində icra edilib.

Toplantıya cəlb edilmiş zabitlərdən müxtəlif ixtisas və fənlər üzrə məqbullar götürülüb.

Üç günlük təlim toplantısı Təlim-Tədris Mərkəzində keçirilən yekun tədbiri ilə başa çatıb. Toplantıya yekun vurulan zaman zabitlərin ixtisas hazırlığı və tabelikdə olanları idarəetmə bacarıqları yüksək qiymətləndirilib.



Yekun tədbirində çıxış edən Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev bildirib ki, hərbi qulluqçuların peşəkarlıqlarının artırılması məqsədilə məşğələ və təlimlər keçirilir. "Bütün bunlar da hər zaman əli tətikdə, gözü hədəfdə olan hər bir hərbi qulluqçunun ən çətin döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirməsində mühüm rol oynayır."

General-leytenant Kərəm Mustafayev bundan sonra da komandir hazırlığı üzrə təlim toplantılarının keçirilməsinin diqqət mərkəzində saxlanılacağını bildirərək tədbirə yekun vurub.

## "Ermənistan absurd mövqeyi ilə özünü kifayət qədər gülünc vəziyyətə qoyur"

Ermənistan, əslində, belə bir absurd mövqeyi ilə özünü kifayət qədər gülünc vəziyyətə qoyur. Göründüyü kimi, bölgəmizdə və onun ətrafında baş verən və sürətlə cərəyan edən hadisələr ya onların görmə qabiliyyətindən və təhlil sahəsindən kənarda qalır, ya da emosiyalar yenidən üstünlük təşkil edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Ankarada ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşünə dair Ermənistan XİN-in mövqeyini şərh edərkən deyib.

Bildirib ki, dünyada və xüsusilə də bölgədə baş verən hadisələrin dəqiq və müfəssəl təhlili erməni tərəfinin qonşu ölkələrlə münasibətlərində konstruktiv yanaşmasına kömək edə bilərdi. "Türkiyə bölgədəki bütün layihə və proseslərin fəal iştirakçısıdır və Ermənistanla Azərbaycan arasındakı münaqişənin tezliklə həllində maraqlıdır. Türkiyə ATƏT-in Minsk Qrupu yarandığı ilk gündən onun daimi üzvüdür və hər zaman onun işində, eləcə də ATƏT-in Minsk Qrupu həmsədrləri ilə məsləhətləşmələrdə fəal iştirak edib. Emosiyaları yüksək olsa belə, Ermənistan tərəfinin Türkiyənin yüksək səviyyəli nümayəndələrinin ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüşünün qiymətləndirilməsində nədən təhrifə yol verdiyi aydın deyil", - deyə Leyla Abdullayeva qeyd edib.

# Naxçıvan Qarnizonunda yunan-Roma, sərbəst güləş və cüdo birincilikləri keçirilir

*Naxçıvan Olimpiya İdman Kompleksində hərbi qulluqçular arasında yunan-Roma, sərbəst güləş və cüdo birincilikləri keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışlardan əvvəl Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik-leytenant Vahid Məmmədov və yarışların baş hakimi Hikmət Hüseynov birinciliyin məqsəd və qaydalarını idmançı hərbi qulluqçuların diqqətinə çatdıraraq iştirakçılara uğurlar arzulayıblar.

Naxçıvan Qarnizonu üzrə keçirilən yarışların ilk günündə hərbi qulluqçular cüdo birinciliyində öz güclərini sınayıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Güləş Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri yarışlarda hərbi qulluqçularla yanaşı, Heydər Əliyev adına Hərbi Liseyin kursantları da mübarizə aparır.

Güləşin yunan-Roma, sərbəst və cüdo növləri üzrə ümumilikdə 23 çəki dərəcəsində keçirilən yarışlar davam edir.

# Pakistanda təhsil alan Azərbaycan HHQ pilotlarının buraxılış mərasimi keçirilib

Pakistan İslam Respublikasının Əsğər Xan Hərbi Hava Qüvvələri Akademiyasında təhsil alan Azərbaycan Hərbi Hava Qüvvələri (HHQ) pilotlarının buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Pakistan İslam Respublikasındakı Hərbi Attaşe Aparatı nümayəndələri, akademiyanın komandanı aviasiya vitse-marşalı Həmid Rəşid Randhava və Uçuş Təlimatçıları Məktəbinin rəsmiləri iştirak ediblər.

Mərasimdə çıxış edən aviasiya vitse-marşalı H.Randhava məzunları təbrik edərək ölkələrimizin HHQ arasında əməkdaşlığın, o cümlədən hərbi təhsil və digər sahələrdə ələqələrin inkişaf etməsinin ordularımızın döyüş qabiliyyətinin daha da gücləndirilməsinə töhfə verdiyini bildirib.

Ölkəmizin Pakistandakı hərbi attaşesi polkovnik Mehman Novruzov pilot hazırlığı proqramı çərçivəsində Azərbaycan zabitlərinə göstərilən köməkliyə görə qarşı tərəfə Müdafiə Nazirliyinin rəhbərliyi adından təşəkkürünü bildirib.

# Xəbərlər: hadisələr, faktlar

## Rusiya ilə Türkiyə arasında memorandum imzalanıb



Rusiya və Türkiyə prezidentləri Suriyada münaqişənin nizama salınmasına dair memorandum imzalayıblar.

Martın 5-də Moskvada keçirilən danışıqların yekununa dair iki ölkə arasında imzalanmış memorandumu Rusiya və Türkiyə Xarici İşlər nazirləri Sergey Lavrov və Mövlud Çavuşoğlu oxuyublar. Sənəddə martın 6-na keçən gecə saat 1-dən etibarən İdlibdə atəşin dayandırılması, Suriyada M4 yolundan 6 kilometr Şimala və Cənuba doğru təhlükəsizlik dəhlizinin yaradılması, martın 15-dən etibarən M4 yolu boyunca Türkiyə və Rusiya hərbçilərinin birgə patrul həyata keçirməsi barədə bəndlər əksini tapıb.

Bundan əlavə, tərəflər Suriyanın ərazi suverenliyini dəstəklədiklərini və terrorizmlə mübarizə aparacaqlarını təsdiq ediblər.

Türkiyə Suriya hökumət qüvvələrinin hərəkətlərinə cavab vermək hüququnu özündə saxlayıb.

## Türkiyə qırıcıları tərəfindən İraqın şimalında 9 terrorçu zərərsizləşdirilib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalındakı terror düşərgələrinə dəqiq zərbələr endirib.

Türkiyə Milli Müdafiə Nazirliyi xəbər verir ki, nəticədə Avaşin bölgəsində 4, Hakurkda 5 olmaqla 9 terrorçu məhv edilib.

## NATO Latviyada hərbi təlimlərə başlayıb



Latviyada NATO-nun 2500 hərbi qulluqçusunun iştirak etdiyi "Büllur ox-2020" beynəlxalq hərbi təlimləri başlayıb. Təlimlər martın 13-dək davam edəcək.

Bu barədə Latviyanın Müdafiə Nazirliyinin məlumat yayıb. Təlimlər ölkənin Adoji bölgəsinin hərbi təlim poliqonunda keçirilir.

Bildirilir ki, təlimlərdə Latviya, Albaniya, Çexiya, Danimarka, İtaliya, Kanada, Monteneqro, Polşa, Slovakiya, Sloveniya və İspaniyadan olan hərbi qulluqçular iştirak edirlər.

## Latviya Avropada orduya ən çox pul xərcləyən ölkədir



Latviya dövlət büdcəsində müdafiə xərclərinin payına görə Avropa İttifaqı ölkələri arasında liderdir.

Bu barədə Avropa Statistika İdarəsi (Eurostat) məlumat yayıb.

Məlumata əsasən, Avropa İttifaqı ölkələrinin ümumi daxili məhsulunun orta hesabla 1,2 faizi orduya yönəldiyi halda, bu göstərici Latviya büdcəsində 2,1 faiz təşkil edir. Ümumi daxili məhsulda müdafiə xərclərinin payı daha çox olan ölkələr arasında ilk üçlüyü Yunanıstan və Estoniya (hər ikisində 2 faiz) tuturlar. Bu göstərici üzrə siyahının sonuncu iki pilləsində İrlandiya (0,3 faiz) və Malta (0,5 faiz) qərarlaşıblar.

Ümumilikdə Avropa İttifaqı ölkələri müdafiə məqsədilə təxminən 162 milyard avro xərcləyiblər.

**AZƏRTAC-ın materialları əsasında**

# “Qələbəmizi şəhidlərimizə həsr edirik”

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğı ordu idmanını da əhatə edir. Bu diqqətin nəticəsidir ki, hərbçilər istər respublika, istərsə də beynəlxalq idman arenalarında uğurla çıxış edirlər. Bu, əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığının bir daha sübutudur. Əsgərlərin döyüş hazırlığının artırılmasında idmanın rolu əvəzsizdir. Buna görə də ordu quruculuğunda bu sahə daim diqqət mərkəzində saxlanılır, şəxsi heyətin idmana marağının artması istiqamətində müxtəlif işlər görülür. Azərbaycan Ordusunda idman yarışlarının keçirilməsi haqqında Müdafiə nazirinin əmrinə əsasən, hər il ordu miqyasında müxtəlif idman növləri üzrə yarışlar, birinciliklər, kütləvi idman tədbirləri keçirilir. 2020-ci ildə ilk belə tədbir Xocavənd rayon İdman Mərkəzində keçirildi. 2017-ci ilin fevral ayında düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan hərbi qulluqçuların xatirəsinə həsr olunan daşqaldırma üzrə ordu birinciliyində ayrı-ayrı qoşun növü və birləşmələrində xidmət edən hərbi qulluqçular mübarizə apardılar. Üç gün davam edən birinciliyin sonunda 6 çəki dərəcəsi üzrə 80 idmançı iştirak etdi. Yarışlardan sonra qaliblərlə görüşdük.*



**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şamo Ələsgərov:**

- Uşaqlığım dağlıq ərazilərdə keçib. Gündəlik fəaliyyətimiz fiziki cəhətdən daha yaxşı formalaşmağıma zəmin yaradıb. 7-8 yaşımdan idmanla da məşğul olmağa başladım. Hər gün kənddən rayon mərkəzinə idman zalına məşqlərə gedirdim. Əvvəl güləşlə, sonra karate ilə məşğul oldum. Məktəbi bitirdikdən sonra daşqaldırma ilə məşğul olmağa başladım.

**- Peşəkar idmançı olmaq istəyini hərbçi olmaq istəyi tamamladı.**

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şamo Ələsgərov:**

- Bəli. Xidmətimlə bərabər, idman fəaliyyətimi də davam etdirirəm. Xidmət etdiyim bölmədə bunun üçün bütün növ idman avadanlıqları ilə təchiz olunan idman şəhərciyi var. Bununla yanaşı, mütəmadi olaraq keçirilən birinciliklər, yarışlar idmana olan həvəsimizi daha da artırır. Onu da deyim ki, döyüş hazırlığı fiziki hazırlıqdan birbaşa asılıdır. Biz daim döyüş əmrinə hazır olan əsgərlərik. Nə qədər güclü və dözümlü olsaq, döyüş tapşırıqlarını o qədər çevik və dəqiq yerinə yetirə bilərik.

**- Həvəs, maraq həyat yolunu müəyyənləşdirirsə, bu, artıq fəaliyyətdir.**

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Marat Şeydabəyov:**

- Həvəs, maraq real imkanlara söykənməyəndə nəticə verə bilməz. Mən də idmana adi maraq kimi baxmamışam. Ona görə də yarışlarda uğurlar qazana bilirəm. Hərbi xidmətdə də fiziki hazırlığıma daim diqqət edir, mütəmadi olaraq idmanla məşğul oluram. İkinci dəfədir ordu birincisi oluram. Bu birinciliyin şəhidlərimizin xatirəsinə həsr olunması qalib olmaq istəyimi daha da artırdı. Daha əzmkar və iradəli mübarizə apardım. Sevincimin və həyəcanımın həddi-hüdudu yoxdu. Şəhidlərimizin xatirəsinə həsr olunan birincilikdə iştirakçı olmaq da qürurvericidir.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Taleh Şıxəliyev:**

- Belə yarışlarda qalib gəlməkdən daha əsas olan odur ki, bütün iştirakçılar yüksək fiziki hazırlıq, dözümlülük və iradə nümayiş etdirdilər.

**- Yəni, bu yarışda iştirakçılar qalib gəlməyi digər yarışlarla müqayisədə daha çılğınlıqla arzulayırdılar, eləmi?**

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şamo Ələsgərov:**

- Bəli. Belə yarışların bu cür yüksək səviyyədə təşkil olunması bizə göstərilən diqqət və qayğının bir daha təzahürüdür. Bu gün cüzi fərqlə həmkarlarımdan üstün ola bilərəm, lakin qələbə hamımızın, ordu idmanınındır.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Marat Şeydabəyov:**

- Mən də hərbçi olmağı qərara almışdım. İndi hərbi xidmətdəyəm. Hərbçi olmağım həm də mənim fiziki cəhətdən möhkəm olmağımı tələb edir. Yəni, adi məşqlər buna nail olmağa şərait yarada bilməz. Ciddi, müntəzəm məşqlər lazımdır və biz də belə edirik.

**Əsgər İmar Qarayev:**

- Hərbi xidmətə çağırılmazdan əvvəl də bu idman növü ilə məşğul olmuşam. Bir neçə nailiyyətim də olub. Lakin heç biri bu qədər sevindirici olmamışdı. Çünki bu birincilik öz qəhrəmanlıqları ilə yaddaşlarımıza əbədi həkk olunan igid qardaşlarımızın xatirəsinə həsr olunmuşdu.

**- Hər yarış istər iştirakçıları, istərsə də tamaşaçıları bunca duyğulandıra bilmir.**

- Əlbəttə. Bu yarış mahiyyət etibarilə vətənsevərliyin, şəhidlərin ruhuna ehtiramın təzahürüdü.

**Əsgər Elsevər Zeynalov:**

- Birincilik çox maraqlı keçdi. Sevinirəm ki, mən də qalib gəldim. İdman ən çox sevdiyim məşğuliyyətdir. Güləş üzrə bir neçə dəfə rayon birincisi olmuşam. İdmançı qələbə qazanmaq üçün yaxşı məşq etməlidir. Fiziki hazırlığını daim yüksəltməlidir. Bunun üçün də hərbi hissəmizdə mütəmadi olaraq idmanla məşğul oluruq. Hər cür idman avadanlığımız da var.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Marat Şeydabəyov:**

- Mükafatlandırılmaq üçün kürsüyə dəvət olundum. Dövlət himnimiz səsləndiriləndə şəhidlərimizə xitabən demək istədim ki, biz sizin döyüş yolunuzu davam etdirəcəyik, Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Taleh Şıxəliyev:**

- Bu birincilikdə iştirak etməyin sevincini mən də yaşayıram. Təkcə iştirakçı kimi deyil, həm də qalib kimi. Belə yarışlarda qalib gəlməkdən daha əsas olan odur ki, bütün iştirakçılar yüksək fiziki hazırlıq, dözümlülük və iradə nümayiş etdirdilər. Bu da bir daha sübut edir ki, istənilən hərbi əməliyyatı yerinə yetirməyə bizim həm döyüş hazırlığımız, həm də fiziki gücümüz çatır. Xatirələri anılan şəhidlərimizin də ruhu qarşısında baş əyirəm. Nə böyük xoşbəxtlikdir ki, belə qəhrəman oğullara sahib bir xalqın nümayəndəsi, Vətəni uğrunda son damla qanına qədər şücaət göstərən igidlərin xidmət etdiyi ordunun hərbçisiyəm.

Seçdiyim bu şərəfli peşədə nümunəvi xidmət edib, qəhrəman oğullarımızın yolunu davam etdirməyi özümə mənəvi borc bilirəm. Bu qəhrəmanlıq, mübarizlik bizə atalarımızdan gəlir. Xalqımız tarix boyu torpaqlarımıza tamahlananlarla vuruşub. Bu gün də hər birimiz xalqımızın vətənsevərliyinin, torpaqsevərliyinin daşıyıcısıyıq. Vətən üçün, torpaq üçün döyüşənlərin qəhrəmanlıq yolunu davam etdiririk. İştirakçısı olduğum bu birinciliyin də əsas məğzi şəhidlərimizin anılması və əziz xatirələrinin daim yaşadılmasıdır. Qələbəmizi şəhidlərimizə həsr etmişik.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Marat Şeydabəyov:**

- Torpaqlarımız işğaldan azad ediləndə şəhidlərimizin ruhuna deyəcəm ki, biz sizin adınıza layiqli əsgər olduq.

**Əsgər İmar Qarayev:**

- Hərbi xidmətdə bizə yüksək təminatla yanaşı, idman etməyimiz üçün də yaxşı şərait yaradılıb. Hərbi xidmətdə biz həm döyüş, həm də fiziki hazırlığımızı artırırıq. İdmanla daimi məşğul oluruq ki, sağlam və dözümlü olaq. Çünki bizim qarşımızda müqəddəs vəzifə durur: torpaqlarımızı işğaldan azad etmək. Bu yarış qaliblərin də, iştirakçıların da xatirəsində illərlə yaşayacaq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Mübariz Balakişizadə:**

- Bu idman növü üzrə artıq beşinci dəfədir ordu birinciliyinin qalibi oluram. Qazandığım qələbələr məndə arxayınlıq yaratmır. Məşqlərə ara vermədən və əzmkarlıqla davam edirəm. Çünki fiziki cəhətdən güclü və hazırlıqlı olmaq bizim üçün olduqca əhəmiyyətlidir. Fiziki hazırlıq həm döyüş qabiliyyətini artırır, həm də sağlamlığı möhkəmləndirir. Birincilik idman yarışı ilə yanaşı, həm də hərbi vətənpərvərlik tədbiri kimi də yaddaşlarımızda qaldı.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Kikboksçularımız beynəlxalq turnirdə 11 qızıl medal qazanıblar



Gürcüstanın Rustavi şəhərində kikboksinq üzrə beynəlxalq turnirdə DİN İdman Cəmiyyətinin təmsilçiləri uğurla çıxış edərək 11 qızıl, 2 gümüş, 1 bürünc medal qazanıblar.

Qızıl medalları Nihat Əhmədov (25 kq), Məhəmməd Şıxıyev (30 kq), Ayxan Məmmədov, Tahir Şərifzadə (32 kq), Nadir Məmmədov (35 kq), Rafiq Babazadə (37 kq), Rəsul Məhərrəmov (50 kq), Nicat Allahverdi (57 kq), Emin Hümbətov (60 kq), Məhəmməd Qulamsaxar (85 kq), Rəşad Mikayılov (71 kq) qazanıblar.

Kikboksinq üzrə gənclərdən ibarət yığma komandanın baş məşqçisi Hakim Hacıyev turnirdə idmançılarımızın yüksək səviyyədə çıxış etdiklərini bildirib. O qeyd edib ki, kikboksçularımız yarışa yaxşı hazırlaşmışdılar və maksimum nəticə göstəriblər.

## Azərbaycan idmançıları Gürcüstanda beynəlxalq turnirdə dörd medal qazanıblar



Gürcüstanın Rustavi şəhərində idmanın Braziliya ciu-citsu növü üzrə beynəlxalq turnir keçirilib.

Azərbaycan Braziliya Ciu-citsu Klubu İctimai Birliyinin təsisçisi və İdarə Heyətinin sədri, qara kəmər sahibi Taleh Həsənov və "Qarabağ" idman klubunun rəhbəri, qara kəmər sahibi Anar Səfərov turnirdən bir gün əvvəl seminar keçiriblər. Seminarda bir çox ölkədən gələn idmançılar idmanın bu növünün sirləri ilə yaxından tanış olmaq şansı əldə ediblər. Bundan başqa, seminarda yarışda tətbiq olunacaq qaydalar da idmançılara ətraflı izah olunub.

Yarışda Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin yetirmələri Samir İsaqov (80 kq), Rəşid Davudov (84 kq), Baxşəli Əliyev (62 kq) və Murad Dibrayev (91 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq turnir üçün xüsusi olaraq hazırlanan kəmərləri əldə ediblər.

## Güllə atıcılarımız Avropa çempionatında iştirak ediblər



Polşanın Vrotslav şəhərində böyüklər arasında güllə atıcılığı üzrə Avropa çempionatı keçirilib.

Yarışda Azərbaycanı yığma komandamızın üzvləri Ruslan Lunyov və Nigar Bağırova təmsil ediblər.

Avropa çempionatında 10 metr məsafəyə tapançadan atəşaçma yarışlarında N.Bağırova 571 xalla 17-ci, Ruslan Lunyov 578 xalla 18-ci olublar.

## Karate üzrə 11-ci beynəlxalq “Baku open” turniri keçiriləcək



Martın 5-8-də Bakı Boks Mərkəzində karate üzrə 11-ci beynəlxalq "Baku open" turniri keçiriləcək.

Ənənəvi turnir bu dəfə dünya şöhrətli Azərbaycan karateçisi Rafael Ağayevin 35 illik yubileyinə həsr olunur. Yarışlarda uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və veteran karateçilər iştirak edəcəklər. Fərdi və komanda yarışlarında karateçilərimizlə yanaşı, Türkiyə, Malayziya, Misir, Gürcüstan da daxil olmaqla, 10-dək ölkədən min idmançının iştirakı gözlənilir.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktor
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 111
Nüsxə 3950